## "Təkfir və hicrət camaatı"

Söhbətimiz elə bir radikal camaat haqqındadır ki, onlar özlərindən başqasını müsəlman görmürdülər. Yəni, kim ki onların camaatına beyət etmirdisə, artıq onların iddiasına görə kafir olurdu. Yəni, müsəlmanlara çox rahatlıqla kafir deyən bir camaatdan, "Təkfir və hicrət", bir başqa adı isə "Camaatul-Muslimin" camaatından danışacağıq. Hər şeydən öncə bu camaatın tarixi yaranma şəratini bilməyimizdə fayda var.

Bu camaat ilk əvvəllər Misir zindanlarının daxilində formalaşmağa başlamışdır. Məhbuslar azadlığa buraxıldıqdan sonra onların fikirləri, tərəfdarları meydana gəldi, xüsusən də tələbələr arasında…

Misir zindanlarına "İxvanul-Muslimin" camaatının minlərlə üzvləri salınmışdı. Onların siyasi məqsədləri var idi. Hakimiyyəti ələ keçirmək istəyirdilər. Bu məqsədə çatmaq üçün suiqəsdlərə belə əl atırdılar. Ona görə də minlərlə "İxvanul-Muslimin" təşkilatınln üzvü həbsə salınmışdı. "Təkfir və hicrət" camaatı da məhz ixvanların içində formalaşmışdı. Bu kimi radikal camaat ixvanların içində formalaşan ilk camaat deyildi. Müsəlman cəmiyyətləri cahiliyyə cəmiyyəti (küfr diyarları) hesab edən ixvan lider Seyyid Qutubun fikirləri 20-ci əsrin axırları, 21-ci əsrin əvvəllərində bir çox təkfirçi qrupların yaranmasına səbəb olmuşdu. Misir höküməti onlara bir dəfə fürsət verib azadlığa buraxsa da bəzi hadisələr təkrarlanır və onlar yenidən həbs olunurlar. Misir

həbsxanasında yaranmış müasir dövrün ən radikal fikirli camaatı həbsxanada onlara edilən işgəncələrdən sonra lap radikallaşırlar. Həbsxanadakı işkəncələr həmin dindarların Misir hökumətinə olan nifrətini daha da artırır. Bu nifrət təkfir fikirlərinin güclənməsinə, sonda isə türmədə özlərindən başqa hər kəsi kafir hesab edən yeni bir camaatın yaranmasına gətirib çıxarır. 1967-ci ildə Misir həbsxanalarında dindarlardan tələb olunur ki, Misir prezidenti Camal Abdun-Nasirə dəstəklərini bildirsinlər. Beləliklə məhbuslar bu yaranmış vəziyyətdə üç qismə bölünürlər:

**1 -** Bir qism prezidenti dəstəkləməyə tələsir və azad olub öz işlərinin başına qayıtmağa çalışırlar. Onlar deyirdilər ki, bütün İslam təbliğatçılarının adından danışırlar. Bu qism əslində ixvan camaatına qoşulmuş bəzi siyasətçilər idilər, hakimiyyətə gəlməyə və çoxlu gəlir əldə edəcəklərinə həvəslənib ixvan camaatına qoşulanlar idilər.

**2 -** Məhbusların əksəriyyəti susmağa üstünlük verirlər, məcburiyyət (ikrah) halında olduqları üçün nə qarşı çıxır, nə də dəstək verirdilər.

**3** - Üçüncü qism azsaylı cavan dindarlar isə hakimiyyətin tələbini rədd edərək ölkə başçısını "kafir" gördüklərini və onun qanunlarının küfr olduğunu elan etdilər. Bununla kifayətlənmədilər, üstəlik də öz məhbus, dindar qardaşlarını hakimiyyəti dəstəklədiklərinə görə (ikrah altında) üzürlü hesab etmədilər, əksinə, onları

kafir, dindən çıxmış, mürtəd adlandırdılar. Hətta, onlara "kafir" deməyənlərin də "kafir" olduğunu dedilər. Hətta, bütün Misir cəmiyyətini bütünlüklə kafir hesab etdilər, çünki onların hakimiyyətə sadiq olduqlarını düşünürdülər. Hətta, müsəlmanlar hakimiyyətə qarşı çıxmadıqları üçün cəmiyyətdə namaz qılıb oruc tutan bütün müsəlmanlara bu əməllərin faydası olmayacağını, onların artıq kafir olduqlarını bəyan etdilər. Bu azsaylı camaatın başçısı və fikir qurucusu şeyx Əli İsmayıl idi. (əl-Movsua əl-Müyəssərəh, Mə'əni əl-Cühəni, 1/333).

## Camaatın liderliyi haqda:

Şeyx Əli İsmayıl həbsxana daxilində bu camaatın lideri idi. O, Əzhər universitetinin məzunu idi. Lakin, Əli İsmayıl sonradan bu fikirlərindən dönür, bu çağırdığı təhlükəli fikirlərdən uzaq olduğunu bəyan edir. Bundan sonra camaatın liderliyi Şükri Əhməd Mustafa (künyəsi: Əbu Səad) adlı bir gəncə keçir. O, 1942-ci il təvəllüdlü, Misirin Əsyut bölgəsinin Həvatikə kəndindən idi. Şükri Mustafa özü 1965-ci ildə "İxvanul-Muslimin" camaatının sıralarında olduğu vaxtda həbs olunmuşdu. O vaxt onun 23 yaşı var idi. (Mənəhicud-Dəvət vət-Təyyarat əd-Diniyyə vəl-Fikriyyə, Əbdür-Rəhim əl-Muğazzəvi, səh. 322-323).

## Camaatın gerçək halı:

Əli Abduh İsmayıl fikirlərindən döndükdən sonra Şükri Mustafa camaatın lideri olur. 1971-ci ildə o sərbəst

buraxılır və elə bu zaman camaatı qruplaşdırmağa, formalaşdırmağa başlayır.
Bu səbəbdən də tərəfdarları onu "möminlərin əmiri" (yəni, xəlifə) təyin edir və ona beyət edirlər. Onu öz iddialarına əsasən dünyadakı müsəlman camaatın lideri hesab edirlər. Bu iddiaya əsasən hər bir müsəlman Misirdəki bu "əmirə", "xəlifəyə" beyət etməli idi. Sonra məntəqələrə, bölgələrə əmirlər, başçılar təyin edirlər. Qahirə, İskəndəriyyə, Ciyzə şəhərləri və bəzi qəbilələrin yaşadığı bölgələrdə camaatın gizli qərargahları kimi bir çox evləri icarəyə götürürlər.

1973-cü ilin sentyabr ayında camaatın üzvlərinə əmr olunur ki, "Mina" bölgəsinin "Əbi Qurqas" məntəqəsində yerləşən dağlıq ərazilərə və mağaralara sığınsınlar. Onlar öz mal-mülklərini satdıqdan sonra lazımi tədarük, azüqə götürdülər, özlərilə atəşli silah olmayan kəsici növdən olan silahlar götürdülər. Bunu öz fikirlərində olan hicrət anlayışına görə etmişdilər.

1973-cü ilin 26 oktyabr tarixində Misirin təhlükəsizlik xidməti onların halından şübhələnir, camaatın üzvlərini həbs edərək onlar haqqında hökm oxunması üçün məhkəməyə verilirlər.

1974-cü ilin 21 aprelində Misirdə müharibə (1973 oktyabr) ilə əlaqədar Şükri Mustafa və camaatı əfv qərarı ilə azadlığa buraxılırlar. Lakin bu dəfə o öz gördüyü işlərə yenidən qayıdır və əvvəlkindən daha sıx şəkildə fəaliyyətə başlayır, camaatın "dayaqlarını"

genişləndirir, səflərini yenidən qruplara ayırır, onları formalaşdırır və təlimatlandırır. Hətta, Misirin müxtəlif bölgələrindən qruplaşmaya yeni üzvləri cəlb etməyə nail olur. Camaatın bir qrupunu isə maddi cəhətdən camaata dayaq olmaları üçün ölkə xaricinə göndərir. Bu da onların fikirlərinin digər ölkələrdə də yayılmasına gətirib çıxarır.

Şükri Mustafa öz tərəfdarlarının fəaliyyət göstərməsi üçün münasib bir sistem, mühit təşkil edir, onları təbliğ, iş və digər tapşırıqlarla məşğul edərək cəmiyyətdən təcrid edir. Artıq bütün üzvlər bütün ehtiyaclarına görə camaatdan asılı hala gəlmişdilər. Üzvlükdən uzaqlaşmaq istəyənlər fiziki cəzaya məruz qalırdılar. Hansısa üzv camaatı tərk etdikdə kafir hesab edilirdi. O baxımdan ki, camaatın xaricində olan cəmiyyətin hamısı onlara görə kafir hesab olunurdu. Ona görə də camaatdan ayrılan bir üzv camaat tərəfindən təqibə məruz qalır və fiziki olaraq məhv edilirdi.

Şükri Mustafa öz qərarlarında diktatorluq etsə də camaatı ona kor-koranə itaət edirdi. Çünki, camaata qoşulduqları zaman camaata sadiq olmaq barədə beyət etmişdilər.

1977-ci ildə "Təkfir və hicrət" camaatının beş üzvü tərəfindən quldurluq hadisəsi baş verir. Onlar Misirin "vəqflər naziri" şeyx Hüseyn Zəhəbini evindən oğurlayır və maşına mindirib naməlum istiqamətə doğru qaçırırlar. Sonra nazirin qaytarılması üçün öz şərtlərini hökumətə

təqdim edirlər. Şərtlər çox idi. Misir hökuməti camaatın şərtlərini qəbul etmədikdə növbəti gün oğurlanmış vəqflər naziri şeyx Hüseyn Zəhəbini otellərdən birində başından (birbaşa sol gözünə) açılmış güllə atəşi ilə yerindəcə öldürürlər. Suiqəsdin əmrini verən camaatın başçısı Şükri Mustafa, icra edənlər isə camaatın üzvləri idilər. Bundan sonra camaat üzvləri və hökumət qüvvələri arasında şiddətli üzləşmələrdən sonra camaatın yüzlərlə üzvü həbs edilir. Camaatın bəzi azsaylı üzvləri canlarını qurtarıb başqa ölkələrə camaatın fikirlərini yaşatmaq üçün qaçırlar. Sonra 1977-ci ildə camaatın beş üzvünə edam cəzası oxunur. Edam 1978-ci il 30 mart tarixində icra edilir. Şükri Mustafa və Əbdüləziz Bəkri də edam olunanların sırasında idilər. Camaatın həbs olunan digər üzvlərinə müxtəlif müddətli həbs qərarları verilir. ("Muyəssərah" ensiklopediyası, 1/334-335)

## Təkfir və hicrət camaatının əsas fikir və etiqadları:

**1 -** Təkfir etmək (kafir adlandırmaq), təkfirdə həddi aşmaq bu camaatın əsas faktorudur.
**2 -** Ümmətin imamlarının (böyük alimlərin) sözlərini götürən, alimlərin icmasına etimad edən hər kəsi müşrik və kafir hesab edirlər.
**3 -** Onlara görə İslamın hicri təqviminin 4-cü əsrindən bu yana olan bütün əsrlər hamısı küfr və cahiliyyə dönəmi hesab olunur.

**4 -** İddia edirlər ki, Raşidi xəlifələrdən (Əbu Bəkr, Ömər, Osman, Əli) olsa belə onlara görə səhabənin sözü hüccət deyil.
**5 -** Öz liderlərini "Mehdi" hesab edirlər.
**6 -** Onlara görə Raşidi xəlifələrdən sonra İslam tarixinin bir qiyməti yoxdur.
**7 -** Onlara görə tədqiqatçı alimlərin, məşhur Quran təfsiri və İslami əqidə kitablarının heç bir qiyməti yoxdur.
**8 -** Quran və Sünnədən savayı heç nəyi qəbul etmirlər. İcma və qiyası inkar edirlər. Quran və Sünnədən isə yalnız öz sözlərinə uyğun gələni götürürlər.
**9 -** Qətiyyən (dünyəvi) elm öyrənməməyə çağırış edirlər. O baxımdan ki, ilkin dövrdəki kimi müsəlman "ümmi" olmalıdır - deyə düşünürlər.
**10 -** Ümmiyyə dəvətini (dünyəvi savadsızlığı, oxumaq-yazmaq bilməməyi) aradan qaldırmağın yəhudi dəvəti olduğunu deyirlər.
**11 -** Məscidlərdə cümə və camaat namazlarını tərk etməyi vacib görürlər. Çünki, məscid imamları və ora gələnləri kafir hesab edirlər. Bu fikirlərinə əsasən, müsəlmanlar "mürtəd" və "kafir" olduğu üçün kafirlərin içində və ya arxasında namazın batil olduğuna etiqad edirlər.
**12 -** Camaatın liderləri özlərinin "imamət" və "mütləq ictihad" dərəcəsinə çatdıqlarını iddia etdilər. Onlar özlərinin əvvəlkilərin və sonrakıların (sələfin və xələfin) icmasına və ümmətə müxalif ola biləcəklərinə inanırlar.
**13** - Böyük günah sahibi günahında israr edərsə və tövbə etməzsə, onu da təkfir edirlər (kafir adlandırırlar). Çünki, belə birinin "günahı halal görmüş" hesab edirlər.

**14 -** Hicrət sözü bu camaatın adından da görünür, "təkfir və hicrət". "Hicrət" məsələsi bu camaatının fikrində ikinci əsas amildir. Bunun mənası "cahiliyyə, kafir toplumu tərk edib onlardan uzaqlaşmaqdır". Onlara görə hal-hazırda bütün cəmiyyətlər "cahiliyyə" (kafir) cəmiyyətləridir. Cahiliyyə sözü Muhəmməd peyğəmbərin gəlişindən əvvəl insanların içində olduğu küfr, şirk, asilik və cəhalətə bənzətmədir.

## Camaatın yayıldığı yerlər:

Təkfir və hicrət camaatı Misirin bir çox bölgələrində, xüsusən də "əs-Said" bölgəsində yayılmışdır. Camaatın Yəmən, İordaniya, Əlcəzair, Məğrib, Sudan və s. bir sıra ərəb ölkələrində də üzvləri mövcuddur.

## Müasir xəvaric fikirlərinin bariz nümunəsi

Bəzi insanlar deyirlər ki, hal-hazırda xəvaric fikirləri yoxdur. Onlar çox yanılırlar! Şükri Mustafa, onun davamçıları və ona bənzər fikirli şəxslər bu gün də İslam ölkələrində xəvaric fikirlərinin daşıyıcılarıdırlar. Əslində ağıl sahibləri üçün bu azğın və dində həddi aşmış camaatın xəvaric olması üçün onların "öz fikirlərində olmayan bütün müsəlmanları kafir adlandırmaları" bəs edir. Lakin, yenə də ən şərli bu tayfa haqqında peyğəmbərin mübarək sözlərini xatırlatmaqda fayda vardır:

İbn Ömər (radiyallahu anhu) rəvayət edir ki, bir dəfə Allah Elçisi (sallallahu aleyhi vəsəlləm) belə buyurdu: "Elə cavanlar çıxacaq ki, Quran oxuyacaqlar, lakin oxuduqları xirtdəklərindən aşağı keçməyəcək. Onlardan hər dəstə çıxan kimi məhv ediləcəklər”. İbn Ömər (radiyallahu anhu) deyir ki, Allah Elçisini (sallallahu aleyhi və səlləm) belə buyurarkən eşitdim: “Hər dəfə buynuz çıxan kimi kəsiləcək. (Yəni: onlardan hər dəstə çıxan kimi məhv ediləcək). Bu iyirmi dəfədən çox baş verəcək. Nəhayət, onların arasından dəccal çıxacaq”. (İbn Macə, 174. Şeyx Albani "həsən" demişdir).

Aişə (radiyallahu anhə) demişdir: Allah Elçisi (sallallahu aleyhi və səlləm) xavariclər haqda buyurdu: "Onlar ümmətimin şərliləridir. Onlar ümmətimin xeyirlilərini öldürəcəklər". (İbn Həcər “Ravdatul-Muhəddisin” 2923. Heysəmi “Məcməuz-Zəvaid”. 10447).

Əli ibn Əbi Talib (radiyallahu anhu) demişdir: Mən Peyğəmbərin (sallallahu aleyhi və səlləm) belə dediyini eşitdim: "Axır zamanda yaşca cavan və ağıldan zəif insanlar peyda olacaqdır. Onlar məxluqatın ən yaxşısının sözü ilə danışacaq, İslamdan, oxun ovlanmış şikardan çıxdığı kimi çıxacaqlar. Onların imanı boğazlarından aşağı keçməyəcəkdir. Belə kəslərə qarşı mübarizə aparın. Bu işi görənə Qiyamət günü mükafat vardır". (Səhih əl-Buxari, 361. Səhihi Muslim, 1066).

İbn Əbi Əufə (radiyallahu anhu) rəvayət edir ki, Allah Elçisi (sallallahu aleyhi və səlləm) demişdir: “Xavaiclər

Cəhənnəmin köpəkləridir”. (İbn Macə, 173; ət-Tabərani “Mucəmul-Əvsat” 9085, “Mucəmus-Sağir” 1096; İbn Əbu Şeybə, 39039. Şeyx Albani "səhih" demişdir).

Həmçinin, peyğəmbərimiz (sallallahu taleyhi və səlləm) nəinki öz fikrində olmayan müsəlmana, ümumiyyətlə müsəlmana "kafir" deməyi qadağan etmişdir: Əbu Zərr (radiyallahu anhu) rəvayət edir ki, Peyğəmbər (sallahu aleyhi və səlləm) buyurdu: "Bir nəfər o birinə "fasiq" və ya "kafir" deməsin. Əgər onun dediyi kimi deyilsə, (bunun günahı) o sözü deyən kəsin özünə qayıdar" . (Buxari. 6103).

Başqa bir hədisdə isə belə demişdir: "Bir nəfər qardaşına "kafir" dedikdə, onlardan biri həmin günaha batar." (Buxari. 1/97).

Xəvariclər haqda hədislər çox olsa da, bu qədəri ilə kifayətlənirik. Allahdan istəyirik ki, bizi bu batil əhlinin şərrindən qorusun, insanları bu azğın firqənin hiylələrindən, şərrindən və fitnəsindən uzaq etsin!

**Topladı və tərtib etdi: Sahib Əsədov**